2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan fondun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Beynəlxalq humanitar siyasətə xüsusi töhfələr verən xanım lider

Xalqımızın yetirdiyi fenomenal tarixi şəxsiyyətlər sırasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna yeri vardır. Bu gün o, sözün həqiqi mənasında, milli və beynəlxalq qadın hərəkatının önündə gedən fədakar liderlərdən biridir. Örnək həyat yolu, çoxşaxəli fəaliyyəti deməyə əsas verir ki, Mehriban xanım ictimai-siyasi arenada, humanitar sahədə daim öndə gedir, dövlətə və millətə xidmət amalına, yüksək ideallara örnək sadiqlik nümayiş etdirir.

Hələ N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetində təhsil aldığımız, eləcə də Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda ixtisaslaşdığımız illərdə tanınmış alimlərimiz, akademiklərimiz Moskvada Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda çalışan Mehriban xanım Əliyevanı bizə nümunə göstərirdilər. Müəllimlərimiz onun təbabət elminin incəliklərini öyrənməyə böyük maraq göstərdiyini diqqətimizə çatdırır və bir ideal kimi ona oxşamağımızı təşviq edirdilər.

Onun taleyinə həmişə birinci olmaq, öndə getmək nəsib olmuşdur. Bu, Mehriban xanımın yorulmaz fəaliyyətində, fədakar səylərində öz təcəssümünü tapmışdır. Bakıda oxuduğu 23 nömrəli məktəbin əlaçısı olmuş və orta təhsilini qızıl medalla bitirmişdir. Elə həmin il daxil olduğu Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə-profilaktika fakültəsində də əla qiymətlərlə oxumuş, sonra təhsilini İ.M.Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetində davam etdirmiş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bakıda və Moskvada tanınmış alimlərdən mükəmməl dərs alması ilə yanaşı, alimlər ailəsində, elm mühitində böyüməsi də onun həyatında misilsiz rol oynamışdır. Babaları – "Bir gəncin manifesti" əsəri ilə Azərbaycan gəncliyinin sevimli yazıçılarından olan professor Mir Cəlal Paşayevin, böyük pedaqoq, Əməkdar jurnalist, professor Nəsir İmanquliyevin, valideynləri – Dövlət mükafatı laureatı, akademik Arif Paşayevin və tanınmış şərqşünas alim, professor Aida İmamquliyevanın şərəfli adları dediyimizi bir daha təsdiq edir. Bununla bərabər, Mehriban xanımın dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və qurucusu Heydər Əliyevin, onun həyat yoldaşı, akademik Zərifə xanım Əliyevanın ailəsində daha da yetkinləşməsi, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu İlham Əliyevin böyük sevgisini qazanması və onunla ailə qurması, heç şübhəsiz, bu fədakar xanımın qələbələrinin əsasında dayanan, mühüm təsiredici amillərdəndir. İstedad, fədakarlıq, vətənsevərlik, humanizm məcmu şəklində Mehriban xanım Əliyevanın həyat uğurlarının təməl daşları olmuşdur.

Müstəqilliyin ilk illərində, Azərbaycanın düşdüyü mürəkkəb geosiyasi vəziyyət, ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə bir xilaskar kimi Azərbaycana qayıdışı ilə nəticələndi. "Hakimiyyət ustası"nın ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas etməsi, hüquqi dövlət quruculuğuna başlaması, Milli Ordunu formalaşdırması, iqtisadi müstəqilliyimizi təmin edib möhkəmləndirməsi, vətəndaş həmrəyliyinə nail olması tezliklə öz müsbət nəticələrini verməyə başladı. Həmin çətin dövrdə atasına – Heydər Əliyevə hərtərəfli dəstək göstərmək məqsədi ilə Azərbaycana qayıdan İlham Əliyev və Mehriban xanım Əliyeva da Vətəndə gərgin, məhsuldar fəaliyyətə başladılar. Qarabağda erməni separatçılarının baş qaldırdığı, nankor qonşularımızın torpaqlarımızı işğal etdiyi, milli-mənəvi dəyərlərimizin az qala arxa plana keçdiyi həmin dövrdə, 1995-ci ildə Mehriban xanımın ideya müəllifliyi ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis edildi və o, yekdilliklə fondun rəhbəri seçildi. Bu barədə Mehriban xanımın fikirləri maraqlıdır: "Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıb. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın hələ təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər tələtümlü olan həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və öz köklərinə qayıdırdı".

Mehriban xanım Əliyevanın təsis etdiyi fond yaradıldığı ilk gündən milli mədəniyyətimizin öyrənilməsi, beynəlxalq miqyasda təbliği, dünya mədəniyyətinə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin yaradılması və inkişafı, mədəni-kütləvi tədbirlərin, xeyriyyə aksiyalarının, nəşr fəaliyyətinin genişləndirilməsi, görkəmli incəsənət xadimlərinin yübileylərinin təşkili və s. bu kimi kompleks tədbirlərin həyata keçirilməsinə xüsusi önəm vermişdir.

Azərbaycanda birinci xanım təsisatı ilk dəfə Mehriban xanımın fəaliyyəti ilə gündəmə gəlmişdir. İllərdir ki, bu adı layiqincə doğruldur, öz fəallığı ilə hətta bir çox digər dövlət başçılarının xanımlarına şəxsi nümunə göstərir. Məhz onun nümayiş etdirdiyi nəciblik, şəfqət, xeyirxahlıq və əsl dövlət xadimlərinə xas olan digər ali keyfiyyətlər dərin mənəvi-əxlaqi səciyyə daşıyır.

Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi məsələlərinin, o cümlədən, ailə və qadın problemlərinin uğurlu həllində, mənəvi, əxlaqi və dini tolerantlıq, habelə, multikultural siyasətinin formalaşmasında və inkişafında ardıcıl və sistemli fəaliyyəti böyük maraq kəsb edir. Bu baxımdan Mehriban xanım Əliyevanın ideya müəllifliyi ilə, ulu öndərin milli dövlətçilik ideyalarının öyrənilməsi və gənc nəslə aşılanması məqsədilə təsis edilən və onun doğum günündə – 2004-cü il mayın 10-da rəsmi açılışı keçirilən Heydər Əliyev Fondunun fəaliyyəti əvəzsizdir. Həmin vaxtdan bu fondun xəttilə ümummilli liderin doğum günü beynəlxalq miqyasda böyük təntənə ilə qeyd olunur və sonsuz rəğbətlə qarşılanır.

Prezident İlham Əliyev Mehriban xanımın Heydər Əliyev Fonduna rəhbərliyini yüksək dəyərləndirib: "2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan Fondun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir".

Yüksək nəciblik missiyasını həvəslə yerinə yetirən Birinci vitse-prezidentin rəhbərlik etdiyi fondun fəaliyyətində COVID-19 pandemiyasına qarşı mübarizə xüsusi qeyd olunmalıdır. Heydər Əliyev Fondu müvafiq laboratoriyaların təcili təşkilinə, ölkəmizin yüksək keyfiyyətli testlərlə təmin olunmasına yaxından dəstək göstərib, mobil tipli müalicəxanalar üçün tibbi avadanlıq və ləvazimat, dərman preparatları xaricdən alınaraq Azərbaycana gətirilib.

Virusa yoluxmuş bir sıra tanınmış şəxslərə də Mehriban xanımın tapşırığına əsasən kömək göstərilib və onlar zəruri müalicə alaraq sağalıblar. Xüsusi karantin rejimi ilə əlaqədar olaraq Heydər Əliyev Fondu "Biz birlikdə güclüyük" layihəsi çərçivəsində ardıcıl surətdə vətəndaşları ərzaq bağlamaları ilə təmin edib. Aztəminatlı və digər həssas qruplardan olan 100 minədək ailəyə dəfələrlə bayram sovqatları çatdırılıb. Mehriban Əliyevanın şəxsi təşəbbüsləri ilə xüsusi qayğıya ehtiyac duyan insanlara fərdi qaydada kömək göstərilməsi bu təşkilata əsl ümumxalq rəğbəti qazandırıb. Əksər ərazilərdə çəkilən yollar, tikilən sığınacaqlar, himayəyə ehtiyac duyan uşaqlar üçün təşkil olunan bayram tədbirləri, yardım və hədiyyələr daimi xarakterlidir.

Fərəh hissi ilə qeyd edək ki, Azərbaycanın birinci xanımının ölkədə, regional və beynəlxalq miqyasda həyata keçirdiyi sistemli tədbirlər daim layiqli təqdirini qazanır. Mehriban xanım, demək olar ki, hər il beynəlxalq təşkilatlar səviyyəsində ən müxtəlif nominasiyalarda yüksək adlara layiq görülür, mükafatlarla təltif olunur. Azərbaycan şifahi xalq ədəbiyyatının və milli musiqi irsinin qorunub-saxlanması və inkişafı sahəsində göstərdiyi xidmətlərinə görə UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri seçilməsi, "Caspian Energy İntegration Award-2005" beynəlxalq təşkilatının "2004-cü ilin ictimai xadimi" mükafatı, 2005-ci ildə "İlin qadını" adı, sonrakı illərdə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) beynəlxalq mükafatı, "Qızıl Ürək" beynəlxalq mükafatı, Heydər Əliyev mükafatı, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, Fransanın "Şərəf Legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Krans Montana Forumunun Qızıl medalı, "Prix de la Fondation" mükafatı, "Birlik Ulduzları" dövlətlərarası mükafatı, "Kazak şöhrəti" ("Kazaskaya slava") mükafatı, "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi" mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı, "İlin Birinci Xanımı" mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Pakistan İslam Respublikasının "Hilal-e Pakistan" ali ordeni, Serbiya Respublikasının "Sreten" ordeni, Avropa Oyunlarının təşkilində xidmətlərinə görə "Heydər Əliyev" ordeni, "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni, İtaliya Respublikasının "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Rusiyanın "Dostluq" ordeni, IX Piy Ordeninin Böyük Xaçı mükafatı,"Humanizm simvolu adına" mükafat və sair onun adlar və təltiflər qalereyasının inciləridir.

Böyük ictimai-siyasi fəallığı nəzərə alınaraq, Mehriban xanım Əliyeva 2013-cü il iyunun 7-də ölkənin ən aparıcı siyasi partiyası Yeni Azərbaycan Partiyasının sədr müavini vəzifəsinə seçilmiş, 2017-ci il fevralın 21-də isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmuşdur. Buradaca qeyd edək ki, Mehriban xanımın Birinci vitse-prezident kimi keçirdiyi ilk tədbir məcburi köçkünlərlə bağlı idi və bu, bir növ rəmzi səciyyə daşıyırdı. Dıdərginlik taleyi yaşayan, paytaxt Bakının və Sumqayıt şəhərinin yataqxanalarında məskunlaşmış qarabağlı soydaşlarımızın köçürülməsinə həsr edilmiş o müşavirə sanki mesaj idi ki, dövlət idarəetməsi nə qədər mürəkkəb proses olsa da, müharibə şəraiti ilə necə üz-üzə qalsaq da, biz qayğı uman heç bir vətəndaşımızı diqqətsiz qoymayacağıq.

Elə bu amalına görədir ki, 2005, 2010 və 2015-ci illərdə Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən Mehriban Əliyevanın namizədliyi irəli sürülmüş və o, böyük səsçoxluğu ilə deputat seçilmişdir. Məhz həmin dövrlərdə onun deputat kimi Milli Məclisə təqdim etdiyi layihələr əsasında parlament humanizm prinsiplərini əsas tutaraq, el bayramları ilə əlaqədar toplam minlərlə məhkumun cəzasının qalan hissəsindən azad olunması haqqında qərarlar qəbul etmişdir.

Beləliklə, Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır.

Xüsusi qeyd edilməlidir ki, erməni faşistlərinin 30 ildən bəri işğal altında saxladığı Vətən torpaqlarının 44 günlük Zəfər yürüşü ilə azad edilməsi kimi tarixi missiyanın həyata keçirilməsi zamanı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin böyük uğurlar qazanmasında Mehriban xanım Əliyevanın fədakar dəstəyi olmuşdur. Vətən müharibəsi yaralılarının görüşünə Prezidentlə birlikdə gedən Mehriban xanımın onlara ana-bacı kimi necə ürək-dirək verdiyi, şəfalar arzuladığı yaddan çıxmır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə qazilər üçün ən müasir protezlərin alınaraq gətirilməsi məhz onun xidmətidir. O, daim dövlət başçısı ilə bərabər işğaldan azad olunmuş ərazilərə səfərlər edir, bərpa və quruculuq işlərinə möhtəşəm dəstək göstərir. Müharibədən sonra Şuşada "Xarıbülbül" festivalı da, digər unudulmaz tədbirlər də onun təşkilatçılığı ilə başa gəlib. Erməni vandallarının yararsız hala saldıqları adidələrin, dini irs nümunələrinin ikinci həyata qayıtması da bu sıradandır. Dünya Azərbaycanlılarının V Zəfər Qurultayının Şuşa şəhərində keçirilməsində də Mehriban xanım Əliyevanın mühüm xidmətləri olmuşdur.

Ölkənin Birinci vitse-prezidenti Azərbaycan mədəniyyətinin, elminin hamisi, Azərbaycan dövlətinin dünya şöhrətli siyasi xadimlərindən biridir. Əzmkarlıq, insanpərvərlik, şəfqət, mərhəmət, mərdlik və cəfakeşlik kimi keyfiyyətlər onu səciyyələndirən başlıca xüsusiyyətlərdir. Hər kəs və bütün xalqımız bunu yüksək qiymətləndirir. Bu barədə, müəllimi professor Vaqif Şadlinski yazır: "Mehriban xanım xalqımızın mərd qızıdır. Mən Avropa Oyunlarının açılışı zamanı Xarkov şəhərində idim. Həmin vaxt orada "Lider" telekanalı Bakıdan Avropa Oyunları ilə bağlı reportaj göstərirdi. Xorvatiya televiziyasında da eyni veriliş yayımlanırdı. Mehriban xanım ingiliscə, azərbaycanca nitq söylədi. Çıxışının sonunda bir cümlə işlətdi: "Tanrı Azərbaycanı qorusun!" Bunun əvəzinə o, başqa söz də işlədə bilərdi. Amma belə deməklə Azərbaycanı nə qədər sevdiyini bir daha bütün dünyaya sübut elədi. Bu, daxildən, ürəkdən gələn bir nida idi. Buna görə də xalqımız, millətimiz Mehriban xanıma, onun Azərbaycanı sevdiyi qədər hörmət bəsləyir və onu sevir".

Yeri gəlmişkən, Birinci xanımın idmana qayğısı da öz əhatəliliyi ilə seçilir. Bu baxımdan "idman şahzadəsi" sayılan gimnastika sahəsində ardıcıl və sistemli tədbirlər keçirilir. 2002-ci ildə Azərbaycan Gimanstika Federasiyasının prezidenti seçilən Mehriban xanımın xidmətləri sayəsində ölkəmizdə gimnastikanın 9 növü intensiv inkişaf etməkdədir. Bakıda ilk Milli Gimnastika Arenası istifadəyə verilmişdir. Məhz bu qayğıya görə, gimnastlarımız mötəbər beynəlxalq yarışlarda uğurla çıxış edərək yüksək mükafatlar qazanmışlar. Bu gün təkcə Bakı, Sumqayıt və Gəncədə deyil, respublikamızın rayonlarında da müasir idman kompleksləri yaradılaraq, gənclərin istifadəsinə verilmişdir.

Mehriban xanım Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 2015-ci ildə Bakıda birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyətinin nəticəsi kimi qeyd edilib. 2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevanın adı ilə bağlıdır. Yaxşı xatırlayırıq ki, Tokio-2020 Olimpiadasında və paralimpiya oyunlarında idmançılarımızın qələbələrinə ən çox sevinənlərdən biri elə Mehriban xanım idi. Təmsilçilərimizin hər qələbəsini, hər medalını özünün sosial şəbəkə hesablarında ayrıca qeyd edir, səmimi təbriklərini isti-isti çatdırırdı. Qalib idmançılarla görüşlər, onlar üçün hər cür şərait yaradılmasına nail olunması dövlət başçısı ilə bərabər, mübaliğəsiz olaraq onun da xidmətidir. Əslində, bu gün Prezident İlham Əliyevin dediyi kimi, ölkədə idmanın dövlət siyasətinə çevrilməsində onun da xidmətləri var.

Vaxtilə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda birgə işlədiyimiz ziyalı xanım Rəfiqə Əzimovanın bir gün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən müdafiə şurasının iclasından sevinclə qayıdaraq, Mehriban xanımın "Evtanaziya və təbabətdə humanizm problemi" adlı tədqiqat işini böyük uğurla müdafiə etdiyindən ağızdolusu, fəxrlə danışdığını yaxşı xatırlayıram. Artıq bu gün Mehriban Əliyeva ölkənin Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini olmaqla bərabər, eyni zamanda, təhsil almış olduğu İ.M. Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tirnovo Universitetinin fəxri doktorudur.

Tarixdə parlaq şəxsiyyətlər səviyyəsinə yüksələn Azərbaycan xanımları da olub. Azərbaycanın ilk qadın hökmdarı Tomrisi, Uzun Həsənin anası, mahir diplomat Sara xatunu, ulu öndərin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanı... yada salmaq kifayətdir. Elə Mehriban xanımın hazırkı geniş ictimai-siyasi fəaliyyəti həmin ənənənin davam etdiyinə gözəl nümunədir. Sələflərin ruhuna ehtiram göstərmək onun örnək amalı sayılır. Burada iftixarla xatırlamaq yerinə düşər ki, Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə bir neçə il əvvəl Belçika Krallığının Vaterloo şəhərində görkəmli Azərbaycan şairi, Xan qızı Natəvanın abidəsi qoyulub. Postamentində "Qarabağ şahzadəsi, Azərbaycan" sözləri yazılmış bu abidə Azərbaycan həqiqətlərinin dünyada tanıdılması üçün görülən işlərə bir töhfədir.

Prezident İlham Əliyevin fədakar ömürgün yoldaşı Mehriban Əliyeva Leyla, Arzu və Heydər adlı üç layiqli övladın anası olması ilə fəxr edə bilər. Bir qadın olaraq düşünürəm ki, Mehriban xanım ömrü boyu anası Aida İmanquliyevanın öyüdlərinə artıqlaması ilə əməl edən bir övladdır. Unudulmaz şəxsiyyət olan Aida xanım özü də həyat yollarında inamla irəliləmiş, el-obada böyük hörmət, nüfuz sahibi olmuşdur. Bu gün Mehriban xanım anasının həyatda saldığı izləri daha da böyüdərək geniş bir yola çevirib.

Səidə HƏSƏNZADƏ,
AMEA Hüquq və İnsan Haqları İnstitutunun şöbə müdiri, hüquq elmləri doktoru, həkim-oftalmoloq